# İqlim maliyyəsinə çıxış imkanlarının və prosedurların sadələşdirilməsi vacib məsələdir

İqlim dəyişikliyi ilə mübarizədə və bu dəyişikliyə adaptasiya məsələsində maliyyələşmənin cəlb edilməsi əsas məsələlərdəndir. İqlim dəyişikliyinin bu qədər sürətlə baş verməsinə və intensiv şəkildə davam etməsinə səbəb əsasən inkişaf etmiş ölkələrin sənaye inqilabından sonrakı dövrdə atmosferə atdığı istixana effekti yaradan qazlarla bağlıdır. Beynəlxalq və ətraf mühitlə bağlı hüquqda da təsbit olunub ki, inkişaf etmiş ölkələr bu məsələdə daha çox məsuliyyət daşıyır, inkişaf etməkdə olan ölkələr və daha zəif ölkələr, eyni zamanda ada dövlətləri daha həssas vəziyyətdədirlər.

Hələ Paris Sazişi qəbul olunmazdan əvvəl Çərçivə Konvensiyasında müəyyənləşdirilib ki, bu məsələdə balansı müəyyən etmək və iqlim dəyişikliyi ilə effektiv mübarizə aparmaq üçün inkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələrə öz iqtisadiyyatlarını iqlim dəyişikliyi ilə mübarizə məsələsinə adaptasiya etmək üçün maliyyə dəstəyi göstərməlidirlər. Belə olduğu halda, həmin dövlətlər iqlim dəyişikliyi ilə effektiv mübarizə apara bilərlər. Ancaq maliyyələşmə ilə bağlı məsələ meydana gəldikdən sonra bununla bağlı bir sıra problemlər ortaya çıxdı və bu məsələlər indiyə kimi öz müsbət həllini tapa bilməyib. COP29-da da maliyyələşmə ilə bağlı məsələlərin həllində hansı irəliləyişlərin baş verəcəyi əsas gözləntilərdən biridir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında ətraf mühit hüququ və siyasəti üzrə ekspert, ADA Universitetinin müəllimi Sadiqə Mehdiyeva deyib.



Ekspert maliyyələşmə ilə bağlı əvvəlki illərdə əldə olunmuş razılığa toxunaraq əlavə edib: “Bundan əvvəl əldə olunmuş razılıq ondan ibarət idi ki, 2020-ci ilə qədər inkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələr, ada dövlətləri və az inkişaf etmiş ölkələr üçün illik olaraq 100 milyard məbləğində vəsait toplamaq niyyətində idilər. Bu məbləği də iqlim maliyyəsi qismində ölkələrin adaptasiya məsələsinə yönəltməli idilər. Lakin təcrübə göstərdi ki, qeyd edilən məbləği toplamaq mümkün deyil. Yəni, ilk problem ondan ibarət oldu ki, real maliyyənin toplanmasında ciddi əngəllər var. İkinci problem ondan ibarət idi ki, iqlim maliyyəsi anlayışının özündə bir qeyri-müəyyənlik mövcuddur. Dünyada adı bu qədər tez-tez səsləndirilən bir anlayışın konkret tərifi yoxdur. Belə bir tərif olmadığı üçün onun tətbiqini monitorinq etmək və şəffaflığını qorumaq da çətindir. Qeyri-rəsmi şəkildə bildirilir ki, bu, dövlət, qeyri-dövlət, özəl sektordan iqlim dəyişikliyinə mübarizə üçün cəlb edilən maliyyə axını deməkdir. Bu maliyyədən həm transmilli, həm də yerli səviyyədə istifadə etmək mümkündür. Ancaq hər hansı beynəlxalq hüquqi sənəddə bu anlayışın dəqiq tərifi olmadığına görə, maliyyənin formalaşdırılması və monitorinq edilməsi, onun ədalətli bölüşdürülməsinə də nəzarət etmək də kifayət qədər çətindir.

Digər vacib problem isə toplanmış, mövcud olan maliyyənin iqlim dəyişikliyi ilə mübarizədə adaptasiya və qabaqlayıcı tədbirlər arasında qeyri-bərabər şəkildə bölüşdürülməsidir. Qabaqlayıcı tədbir odur ki, siz iqlim dəyişikliyi yaradan istixana effekti verən qazların həcmini azaldırsınız. Bu məsələdə böyük həcmdə iqlim dəyişikliyinə qlobal təsiri olan ölkələrin iqtisadi modelinin müəyyən qədər dəyişdirilməsi, yaşıl sənayeyə keçid nəzərdə tutulur. Ancaq bu, kifayət qədər xərc tələb edən, eyni zamanda da çətin prosesdir. Məsələ burasındadır ki, iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün təkcə qazların emissiyasını azaldılması üsulu kifayət deyil. Burada ən böyük rol iqlim dəyişikliyinə adaptasiya məsələsinin üzərinə düşür. Məlumdur ki, dünyanın böyük bir hissəsi iqlim dəyişikliyindən əziyyət çəkir. Əhali daşqınlardan tutmuş miqrasiya məsələsinə kimi çox ciddi təsirlərə məruz qalır. Belə olduğu təqdirdə,

adaptasiya tədbirləri görülməzsə, təkcə istixana qazlarının azaldılması ilə iqlim dəyişikliyinə qarşı effektiv mübarizə aparmaq mümkün deyil. Adaptasiya tədbirlərinə kifayət qədər maliyyə ayrılmazsa, sosial vəziyyəti ağır olan ölkələrin və ərazilərin sayı artacaq. İqlim maliyyəsinin təqribən beşdəbir hissəsi adaptasiya məsələsinə xərclənir. Ancaq beşdə üç və beşdə dörd hissəsi qabaqlayıcı tədbirlərə ayrılır. Bu, böyük disbalansdır”.



S.Mehdiyeva qeyd edib ki, iqlim maliyyəsində ən vacib ədalətsizliyə yol açan məsələlərdən biri də maliyyənin inkişaf etmiş ölkələr tərəfindən inkişaf etməkdə olan ölkələrə və zəif ölkələrə çox vaxt borc qismində təqdim olunmasıdır: “İnkişaf etməkdə olan və daha zəif ölkələrin, o cümlədən ada dövlətlərinin kifayət qədər xarici dövlət borcu olur. Buna görə də mövcud olan xarici dövlət borcunun üstünə əlavə borclanmanı qəbul etmək istəmirlər. Burada bir sual meydana çıxır ki, inkişaf etmiş ölkələr maliyyə dəstəyi verməlidir dedikdə, borc almaq məsələsi nəzərdə tutulur? Qeyd edim ki, güzəştli şərtlərlə maliyyə verən inkişaf etmiş dövlətlər də var. Amma güzəştli maliyyənin həcmi güzəştsiz maliyyəyə baxanda çox az təşkil edir. Həmin dövlətlər bazar şərtlərinə uyğun borc verirlər. Bu da bildiyimiz adi kreditdir ki, nəticədə dövlət borcu yaranmasına gətirib çıxarır. Belə olduğu təqdirdə nə inkişaf etməkdə olan ölkələr, nə də az inkişaf edən ölkələr iqlim maliyyəsindən tam yararlana bilmirlər. Bu da onların iqtisadiyyatı üçün əlavə problem yaradır. Ona görə də bu cür ölkələrə maliyyəni sadə şərtlərlə təqdim etmək vacibdir. Kommersiya məqsədləri və maraqları olmadan güzəştli şəkildə maliyyə verilməlidir.

Başqa bir problem isə maliyyənin alınması üçün müraciət prosedurlarının sadə olmaması ilə bağlıdır. Az inkişaf etmiş ölkələrdə və ada dövlətlərində bəzən kadr potensialı və institusional hazırlıq müraciət prosedurlarını həyata keçirməyə imkan vermir. Çünki müraciət prosedurları kifayət qədər mürəkkəbdir. Bundan əlavə, maliyyə borc kimi təqdim edildiyinə görə, istənilən halda borcu geri almaq imkanları da inkişaf etmiş ölkələr tərəfindən dəyərləndirilir. İqtisadi göstəriciləri yaxşı olmayan ölkələr üçün bu kriteriyaları keçmək çətindir. Bu zaman da böyük ədalətsizlik meydana gəlir. Onsuz da bu ölkələr iqlim dəyişikliyindən əziyyət çəkir, belə olan halda da mürəkkəb prosedur qaydalarının öhdəsindən gələ bilmirlər”.



COP 29-da iqlim maliyyəsi məsələsinin əsas müzakirə mövzusu olmasını müsbət hal kimi dəyərləndirən ekspert, eyni zamanda, qlobal iqlim tədbirinə inkişaf etməkdə olan ölkə kimi Azərbaycanın ev sahibliyi etməsini vacib addım kimi qiymətləndirib. Bildirib ki, Azərbaycan indiyə qədər bu ayrı-seçkiliyə məruz qalan və prosesdən əziyyət çəkən, iqlim təsirlərindən itki verən ölkə kimi həm ada dövlətlərinin, həm də ən az inkişaf etmiş ölkələrin səsini dünya ictimaiyyətinə daha yaxşı formada çatdıra bilər.

"COP29-dan ekspert kimi gözləntim ondan ibarətdir ki, əvvəla, mütləq şəkildə iqlim maliyyəsinə çıxış imkanları və prosedurları sadələşdirilməlidir. İkinci gözləntim ondan ibarətdir ki, dünyada bu istiqamətdə təqdim edilən maliyyəni güzəştli şərtlərlə hüquqi baxımdan prioritetə çevirmək lazımdır. Çünki bazar şərtlərinə uyğun kredit verilməsi və bunun iqlim maliyyəsi şəklində adlandırılması ədalətsizlikdir. Ona görə də COP29-da güzəştli kreditlər məsələsi gündəmə gətirilməlidir. Digər vacib məsələ isə iqlim maliyyəsinin adaptasiya və qabaqlayıcı tədbirlərə bərabər şəkildə paylanması üçün bir mexanizm irəli sürülməsidir. Qabaqlayıcı tədbirlər vacibdir, ancaq adaptasiya ehtiyacı olan ölkələri maliyyədən kənarda qoymaq insanları özlərinin başlatmadığı bir müharibədə döyüş meydanında tək qoymağa bənzəyir. Çünki adaptasiya məruz qalan ölkələrin heç biri iqlim dəyişikliyini yaradan ölkələr deyil. Onların çətin və kritik zamanlarında maliyyəni ancaq qabaqlayıcı tədbirlərə xərcləmək böyük disbalans yaradır. Əgər bu disbalans aradan qalxmasa, iqlim maliyyəsinin nə qədər toplanmasının elə də böyük əhəmiyyəti qalmır.

Bu üç məsələnin həllində COP 29-dan böyük gözləntilərim var. Azərbaycanın diplomatik, siyasi və hüquqi imkanları hər üç məsələni vurğulamağa geniş imkan yaradır. Yeri gəlmişkən, Azərbaycan özü də ciddi şəkildə iqlim dəyişikliyindən əziyyət çəkir. Naxçıvan Muxtar Respublikası, Aran zonası və sahilyanı ərazilər çox ciddi təsir altındadır", - deyə ekspert qeyd edib.

**AZƏRTAC**
**2024, 18 sentyabr**